

*Əl işdən soyumaz, ürək arzudan...*

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

*1933-cü ildən nəşr olunur*

№ 58-59 (7107-7108) ✿ Cümə, 2 avqust 2013-cü il ✿ Qəzet ayda 4 dəfə çıxır ✿ Qiyməti 40 qəpik

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Xəbər verdiyimiz kimi Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar mərasimi təşkil etmişdir.

İftar məclisində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə çıxış etmişdir.

✿ ✿ ✿

Azərbaycan Prezidenti İlham Əliyev Zığ dairəsi—Heydər Əliyev Beynəlxalq Aeroportu avtomagistralının 13-cü kilometrliyindən Qala qəsəbəsinə gedən yolun açılışında iştirak etmişdir.

✿ ✿ ✿

Prezident İlham Əliyev paytaxtın Füzuli və Mirzəağa Əliyev küçələrinin arasında inşa olunmuş yeraltı avtomobil dayanacağının açılışında iştirak etmişdir.

✿ ✿ ✿

Dövlətimizin başçısı İlham Əliyev Avrorpa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefortun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri, Ermənistan—Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əlaqədar danışıqlar prosesi və Azərbaycanda qaçqınların vəziyyəti ilə bağlə məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

✿ ✿ ✿

Prezident İlham Əliyev Mərakeşin milli bayramı—Taxt-tac günü münasibətilə ölkə Kralı Əlahəzrət VI Məhəmmədi təbrik etmişdir.

**Miri RƏHİMOV.**

## İranda «İlham: Bir Prezidentin portreti» kitabı fars dilində nəşr edilmişdir

Azərbaycan Respublikasının Tehrandakı səfirliyi İranda "İlham: Bir Prezidentin portreti" kitabını fars dilində nəşr etdirmişdir.

Görkəmli tədqiqatçı Qril H.Vilson tərəfindən ingilis dilində qırx bölmə üzrə yazılmış kitab Azərbaycanın qədim tarixindən, XX əsrin əvvəllərində əldə etdiyi dövlət müstəqilliyinin fəaliyyəti və süqutundan, sovetlər dövründəki ictimai-siyasi proseslərdən, keçmiş SSRİ-nin süqutu ərəfəsində təcavüzkar Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi işğalçılıq siyasətinin nəticələrindən, ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyasından, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən çoxistiqamətli inkişafın göstəricilərindən bəhs edilir.






Xalqımızın tarixi dövlətçilik ənənələrindən bəhs edən müəllif yazır ki, Azərbaycanın geosiyasi mövqeyi zaman-zaman böyük güclərin bu bölgədəki maraqlarının toqquşmasına səbəb olmuşdur. Nəticədə Azərbaycan xalqının maddi-mədəni irsinə qarşı çoxistiqamətli təcavüz halları baş vermişdir. Qeyd edilir ki, tarixin bütün dövrlərində Azərbaycan xalqı müstəqil dövlət yaratmaq üçün bütün imkanlara malik olmuş, bu istiqamətdə dəyərli ənənələr yaratmışdır.

Kitabda XX əsrin əvvəllərində Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və süqutunun səbəbləri geniş təhlil edilmiş, sovet hakimiyyətinin ölkəmizə gətirdiyi bəlalara nəzər yetirilmişdir.

Müəllif yazır ki, Azərbaycan XX əsrin əvvəllərində qarşılaşdığı dövlətçilik böhranını həmin əsrin sonunda yenidən yaşamışdır. Hər iki halda Ermənistanın işğalçılıq siyasəti Azərbaycanın dövlətçiliyinə qarşı yönəlmiş təcavüz kimi tarixə düşmüşdür. 1993-cü ildə ikinci dəfə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev Azərbaycan xalqının tarixində xilaskarlıq obrazı yaratmışdır. Ümummilli lider təcavüzkar Ermənistanı atəşkəsə məcbur etmiş, həyata keçirdiyi uzaqgörən neft strategiyası ilə region ölkələrinin kompleks inkişafı üçün yeni bir şərait yaratmışdır. Bu siyasətin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi Azərbaycanın hərtərəfli inkişafını təmin etmişdir. Azərbaycan beynəlxalq aləmdəki mövqelərini möhkəmləndirmiş, bütün parametrləri ilə qüdrətlənmiş, xalqın rifahı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

Yüksək dizaynla və keyfiyyətli poliqrafiyada 512 səhifədə çap edilmiş kitabda Azərbaycan tarixinin müxtəlif dövrlərinə aid, ulu öndər Heydər Əliyevin yarım əsrə yaxın dövrü əhatə edən siyasi fəaliyyətinin ayrı-ayrı məqamlarını əks etdirən Prezident İlham Əliyevin siyasi fəaliyyətinə dair nadir fotolar yerləşdirilmişdir.

Kitabda qeyd olunan faktlar, göstərilən mənbələr, dəyərli fikir və mülahizələr Azərbaycanın tarixi və müasirliyini tədqiq edən farsdilli mütəxəssislər üçün əhəmiyyətli vəsaitdir.

**Sabir ŞAHTAXTI,**
**AzərTAc-ın xüsusi müxbiri.**
*Tehran.*

## Kompleks tədbirlər proqramının müəllifi

Artıq 22 ildir ki, Azərbaycan xalqı müstəqillik dövrünü yaşayır. Bu dövr ərzində ölkəmiz sosial-iqtisadi sahədə sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Sosial-iqtisadi islahatların ardıcıl qaydada həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması və həyata keçirilən aktual tədbirlər Azərbaycanın dinamik inkişafını təmin edən faktorlar hesab edilir.

Müstəqil dövlətimizin sürətli inkişafına təkan verən bütün bu tədbirlər ulu öndər Heydər Əliyev tərəfindən hazırlanmış inkişaf strategiyasının uğurlu tətbiqinin nəticələridir. Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanı ölkə Prezidenti cənab İlham Əliyev uğurla həyata keçirir.

Bu gün müstəqil Azərbaycanımızın beynəlxalq aləmdə və onun qurumlarının hesabatlarında islahatçı ölkə kimi yer tutması ölkəmizin seçdiyi yol düzgün olduğunu, bir daha doğru olduğunu təsdiq edir. Ötən on ilin nəticələri və yekunları bir daha deməyə əsas verir ki, möhtərəm Prezidentimizin rəhbərliyi ilə reallaşdırılan ümummilli inkişaf strategiyası bütün sahələrin paralel inkişafını yüksək səviyyədə təmin edib. Bu dövr ərzində uğurla həyata keçirilən tədbirlər sayəsində vətəndaşların maddi rifah halı daha da yaxşılaşmış, sosial müdafiə və təminat sistemi gücləndirilmiş, məşğulluq səviyyəsi isə yüksəldilmişdir.

**(Ardı 2-ci səhifədə).**